# Vətən fədailəri

(Əvvəli 4-cü səhifədə).

İnsan var ömrü baharın fidan çağı qədər olar, ancaq əbədilik bir yaşam qazanar. Xalqı üçün, ölkəsi, vətəni üçün yaşayanlar insan ömrünə əbədilik iz qoyanlardır. Milli mənəvi zənginlik, vətənpərvərlik belə insanların ömrünü tarixə nəqş edir; onlara əbədiyaşarlıq titulunu qazandırır.

Torpaq onu sevənlərin və onun qədrini bilənlərin sayəsində vətən olur.Hər kəs bu torpağa ayaq basa bilər, yaşayar, lap əsr yaşayar, ancaq qəlbi bu torpağın müqəddəratı üçün çırpınmaz. Az yaşamasına rəğmən ömrünü əsrlərlik tarixə yazdı Qoşqar! İllər bir-birini əvəz etdikcə onun yaşı böyüyəcək. Ancaq ömrü həmişə bahar qalacaq, bənövşə ömrü kimi. Bənövşələr yazın ilk, ən ətirli güllərindən sayılar, ömrü isə baharın ilk çağlarına aid olar... Qoşqar igidimin ya həyatı dəyişməz, ya ruhu!

Bahar ömürlülərə aid bir həyat yaşadı Qoşqar! Əzizlərinin gözündə böyüməsə də, Vətən üçün yetkin bir vətəndaş, igid bir oğul kimi böyüdü, ölümlə üz-üzə dayananda belə göz qırpmadan şəhadət yolu seçdi, torpağı al qanı ilə vətənləşdirdi. Vətənləşdirdi ki anası - əzizləri, xalqı bu vətəndə məğrur, qalib bir ölkənin vətəndaşları kimi yaşasınlar, bütöv bir vətəndə, hər kəs öz obasında, öz ocağı başında ömür sürsün. Xalqımızın adından, dilimizin lüğətindən qaçqın, köçgün sözləri "silinsin!". O zaman vətən yolunda canından keçən oğulların ruhu da göylərdə -səma məkanlarında narahat dolaşmazlar.

Qoşqar Üzeyirovun atası Müşfiq Üzeyirov da I Qarabağ Müharibəsi veteranıdır.Atanın vətən məhəbbəti oğulun da qəlbində bərqərar olduğuna görə döyüşlərin çətinliyindən qoxmamış, atanın yarım qalan arzularını həyata keçirərək Zəfər qazanan bir ölkəyə yeni tarix yazanlardan olmuşdur.



Qoşqar 2008-2019 cu illərdə Qəbələ rayon Soltannuxa kənd məktəbində orta təhsil almışdır. 2020-ci ilin yanvar ayında həqiqi hərbi xidmətə çağırılmışdır.

Azərbaycan ordusunun nümunəvi xidmət edən əsgəri kimi Qoşqar 2020-ci il sentyabr ayının 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan II vətən müharibəsi zamanı Ağcabədi, Ağdam və Xocavənd istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. O, döyüş tapşırıqlarını həmişə bacarıqla yerinə yetirmişdir. Zəfər qazanılmasına cəmi 3 gün qalmış, noyabrın 7-də Xocavənd uğrunda gedən ağır döyüşlərdə şəhid olmuşdur. Noyabrın 21-də Soltannuxa kənd qəbristanlığında dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Qoşqar Üzeyirov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif olunmuşdur.

Sonralar igid şəhidimiz "Xocavəndin azad olunmasına görə", "Vətəndə xidmətə görə" medalları ilə təltif olunmuşdur. Ən böyük təltifi isə qazandığı ən ali titul - Şəhid adıdır. Bu şərəfli ad isə hər kəsə nəsib olmur. Qışın qar-sazaqlı bir vaxtında dünyaya göz açan və həqiqi hərbi xidmətə də eyni fəsildə, eyni ayda başlayan Qoşqar Üzeyirov qısa ömrünə qar bəyazlığı kimi pak bir adla, pak bir ömür yazdı. Çox qısa, ancaq əbədilik bir ömür, həmişəyaşar, ölümsüz bir ömür.. O, vətənpərvər insanların yaddaşında əbədi yaşayacaq, tarixin xronikasında qəhrəmanlar sırasında adı daima yad olunacaq!

**BİBİXANIM.**

# Dünya bir pəncərədir...

***Könlümün sevgili məhbubu mənim***
***Vətənimdir, vətənimdir, vətənim!...***

Bu şer hər bir vətənpərvər insanın dilində əzbərdir. Sevimli şairimiz Abbas Səhhət o misraları yazarkən sanki vətənpərvərliyin "devizini" yazmışdır, illər ötsə də bi misralar nəsilbənəsil yaddaşlarda qalan ən müqəddəs kəlamlar kimi səslənir. Bu kəlamları sidq ürəkdən duyanlar isə Vətən yolunda hər cür çətinliklərə sinə gərməyə hazır olurlar. Məhz ömrünü hərbiçi kimi yaşayan, ölkəmizin hərbi sahəsində sidq ürəklə çalışan və onun inkişaf etdirilməsində öz məsuliyyət hissini dərk edərək bacarıqla orduya xidmət edən bir insandır Vüqar. Xalqına xidmət etmək üçün bu dünyaya gəlmişdir O! Bu dünya isə bir pəncərə... Vüqar da bu pəncərədən baxdı.. keçdi... Ancaq çox az baxdı və tez keçdi!



Vüqar Sədiyar oğlu Məlikov 1977-ci il sentyabr ayının 2-də Vəndam qəsəbəsində anadan olmuşdur. .Orta təhsilə qəsəbədəki 2 saylı məktəbdə başlamışdır. Hələ uşaq yaşlarından hərbiyə meyilli idi, qəlbində əsl hərbiçi olmaq, vətənə bu peşə ilə xidmət etmək arzusunda idi.Elə bu istək arzu ilə də 1991-ci ildə o, Cəmşid Naxçıvanski adına hərbi litseyə qəbul olunur. Vüqar Məlikov 1994-ci ildə isə Bakı Ali Hərbi Dənizçilik məktəbinə qəbul olunmuşdur. 1998-ci ildə həmin təhsil ocağını bitirmişdir.

Vətənpərvərlik deyərkən yalnız döyüş bölgələrin də olan, döyüşlərdə iştirak edərək yaralanan və şəhid olanlar nəzərdə tutulmamalıdır.Xalqına, Vətəninə xidmət edən, ölkəsinin, xalqının mənafeyinin hər ciddcəhdlə qorunması və yaxşılaşdırılması üçün çalışan, aid olduğu ölkənin daxili və xarici siyasətinin inkişafında öz məsuliyyət hissini dərk edənlərdir vətənpərvər insanlar!...

Vüqar Məlikov öz hərbi bilik və bacarığı ilə xalqına xidmət edən biri olmuşdur. Müharibə dövründə də döyüş bölgələrində xaidməti vəzifəsini layiqincə yerinə yetirmişdir. O, 1998-ci ildən ağır xəstəliyə düçar olana qədər müxtəlif vəzifələrdə çalışmış, xidməti dövründə məsuliyyətli və bacarıqlı xidmətlərinə görə müxtəlif təltiflər almışdır.2014-cü ildən 2021-ci ilədək MTT-nin baş idarəsinin ərzaq xidmətinin baş zabiti olmuşdur.



2020-ci ilin oktyabrından ağır xəstəliyə tutulmuş və 2024-cü ilin yanvar ayının 8-dək uzun sürən xəstəliklə mücadilə etmişdir.

Onu da qyed edək ki, 2021-ci ilin iyul ayından xəstəliyinə görə həqiqi xidmətdən buraxılmışdır.

Ailəlidir, 2 övladı var, övladları tələbədirlər.

Bəli, həqiqətən də dünya bir pəncərədir, hər gələn də baxar... gedər...

**Bibixanım İSAYEVA.**

# Şəhidlik qürur yerimiz, andımızdır



Şəhidlər tarixindən, məkanından asılı olmayaraq eyni titulludurlar və yaddaşlarda yaşayırlar. 4 illik Birinci Qarabağ Müharibəsində qələbə qazanılmasa da (bu müəyyən səbəblər üzündən qazanılmamışdı) oğullar və qızlar torpaqların müdafiəsində igidliklər göstərərək döyüşmüşdülər. Yüzlərlə şəhidlərimiz, itkinlərimiz olmuş, faciələr törədilmişdi. Kəndimizin igid oğlu Murad Əlibəyov da məhz belə şəhidlərdəndir. Onun şəhadətə qovuşması tarixindən (10 yanvar) 30 il keçir.

Əlibəyov Murad Mustafa oğlu 1963-ci il fevralın 2-də Qəbələ rayonunun Xırxatala kəndində dünyaya gəlib. 1970-ci ildə Xırxatala kənd orta məktəbin birinci sinfinə daxil olub və 1980-ci ildə həmin məktəbi bitirmişdir.

Bir müddət Bakı şəhərində fəhlə işləmişdir.1981 -83-cü illərdə sovet ordusu sıralarında xidmət etmişdir. Ordudan tərxis edildikdən sonra Bakıda kranççı işləmişdir.

1993-cü ilin fevral-aprel aylarında könüllülər batalyonunda ön cəbhədə döyüşmüşdür. Döyüşlərin birində yaralanaraq hərbi xəstəxanada müalicə olunmuşdur.

Sağalandan sonra Murad yenidən cəbhəyə qayıtmışdır. 1994-cü ilin yanvarın 5-də Ağdamın Papravənd Qərvənd kəndləri uğrunda gedən şiddətli döyüşlərdə qəhrəmancasına həlak olmuşdur.

Doğma kəndi Xırxatalada dəfn olunmuşdur.

O, şəhid olarkən 2 körpəsi yadigar qalmışdı. Onları şəhidin xanımı Ceyran Əlibəyli çox çətinliklə də olsa böyütdü, təhsil almaları üçün şərait yaratdı. Hazırda hər ikisi ali təhsilli, ailəlidirlər. Murada qismət olmasa da onun nəvələri də vətənpərvər ruhda böyüyür, babalarının igidliyinin qürurunu yaşayırlar. Şəhid acılarını yaşayan ailələrin övladları və nəvələri onların qəhrəmanlığının qürurunu nəsilbənəsil ötürərək yaşayacaqlar. Çünki şəhidlik tarixin yazılışı, həyatın əbədi xronikasıdır.

**Zinyət TAHİROVA,**
**Xırxatala kəndi.**

# Heç kəs unudulmur

Tarixini unudan şəxs xalqın övladı ola bilməz, vətəndaş adı unutqanlara ünvanlanmamalıdır. O tarixi ki, canlar, qanlar bahasına yazılmış, tarix olaraq xronologiyalaşdırılmışdır. Tarixin hər hadisəsi insanlar tərəfindən qorunub saxlanılır, çünki bu tarixin əsas qəhrəmanları da insanlardır.

30 ildən çox bir müddət keçməsinə baxmayaraq, I Qarabağ Müharibəsi hər kəsin yaddaşındadır. Bu günkü nəsil o müharibənin ağrı-acılarını, döyüşlər zamanı qazanılan qələbə və məğlubiyyətləri; onların səbəblərini, yüzlərlə şəhidlərin döyüş qəhrəmanlığını, itkin eloğlularımızın acı taleyini və s. Kitab və qəzet səhifələrindən oxuyur, yaşlı nəslin qan yaddaşındakı söhbətlərindən, tarixi məkanlardakı eksponatlardan öyrənirlər. O müharibənin canlı şahidləri bu gün həyatda. Şəhidlərin əzizlərinin, həyatda yaşayanlarının maraqlı söhbətləri onların yaddaşında; söhbətlərində.



Tarixi yaşatmaq üçün bu gün onların yaddaşlarından canlı şəkildə istifadə etmək lazımdır. Bir sözlə, elə şəhidlərin bilgiləri sənədləşdirilməlidir ki, gələcək nəsil unutqan deyil, tarixini gözəl bilən insanlar kimi cəmiyyətimizdə yaşasınlar. Bu isə hər kəsin müqəddəs borcu sayılmalıdır. Belə bir missiyanı həyata keçirmək üçün "Qəbələnin səsi" ədəbi yazarlar birliyi şəhid ailələri, qazilər və müharibə iştirakçıları ilə tez-tez görüşür, şəhid məzarlarını ziyarət edirlər. Belə görüşlərdən biri rayonumuzun Tüntül kəndində keçirildi. Görüş Tüntül kənd sakini, 1993-cü ilin şəhidi Tofiq Teymur oğlu Rəhimovun məzarının ziyarəti ilə başlandı, sonra isə onun ailəsi və əzizləri ilə birgə şəhidin xatirələri "varaqlandı". Görüşdə həmçinin şəhid ailələri Qəbələ TV-nin əməkdaşları, Qəbələ Veteranlar şurasının sədri, Sağlam ailə təşkilatının üzvləri, Dizaxlı kənd bələdiyyəsinin sədri, kənd sakinləri iştirak etmişdilər.

İlk növbədə şəhidlərin ruhu bir dəqiqəlik sükutla yad edildi. Sonra isə tədbir iştirakçıları çıxış etdi, Şəhid Tofiqin həyatı və döyüş xatirələri və döyüş haqqında toplanmış materiallar əsasında maraqlı söhbətlər dinlənildi.

Şəhidin məzarı ziyarət edilərkən kəndin son şəhidləri - 44 günlük II Vətən Müharibəsində şəhid olmuş Rüstəm Atakişiyev, 2023-cü ilin sentyabr ayında ermənilər tərəfindən törədilən terrorda şəhadətə qovuşan Tamerlan Soltanbəylinin də məzarları ziyarət olundu, şəhidlərin ruhuna dualar oxundu.

Şəhidlər unudulmur və yaddaşlarda daima yaşayırlar.

**Şəhla XƏLİLQIZI,**
**"Qəbələnin səsi" ədəbi yazarlar birliyinin sədri.**